## СЛОЖНЫЕ ЧАСТИ РЕЧИ - СПОСОБЫ УСВОЕНИЯ СЛОЖНЫХ СЛОВ

*Кулиева Тахира Абдуррахман кызы*

***Резюме***

В некоторых случаях определенное лексическое значение выражается не одним словом, а комбинацией двух или более слов. В разные годы в школьных учебниках высказывались разные мнения о сложных частях речи. Например, смежные части речи и части речи, написанные через дефис, назывались сложными, а написанные отдельно - сложными.Хотя термин «сложный состав» сейчас используется в некоторых учебниках, все эти слова считаются сложными.

***Rəyçi: dos. Solmaz Cəfərova***
***Azərbaycan dili kafedrasının 16 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil oma tarixi 24 noyabr 2021-ci il***

**UOT:94(479.24).**

## KATIN FACİƏSİ

***Dos. Veyisov Arif Hacı oğlu, Veyisova Mələk Arif qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***Ş.Cəbiyev adına Daş Salahlı kənd 2 saylı tam orta məktəb***
***veyisov.arif@bk.ru***

**Xülasə:** *1939-cu il sentyabrın 1-də faşist Almaniyasının Polşaya hücumu, 17 sentyabr 1939-cu il tarixli Sovet-Almaniya müqaviləsinə əsasən Sovet İttifaqının Polşaya hücumu və 1941-ci ildə Polşa dəmiryolçularının Katında kütləvi məzarlığın olması barədə almanlara məlumat verməsi. , bu tapıntıdan sovetlərə qarşı istifadə etmək üçün almanların Avropa Komissiyası yaratması məqalədə konkret faktlarla izah edilir. Həmin ərazilər azad edildikdən sonra Sovet hökuməti tərəfindən istintaq komitəsi yaradılaraq, Sovetlərin Katın qırğınının almanlar tərəfindən törədildiyi barədə iddialar sovet rəsmiləri etiraf edənə qədər bu məqalədə konkret faktlarla göstərilməyənə qədər qüvvədə qalır.Hər iki ölkənin alimlərinin sənəd araşdırmalarına əsasən Stalin və digər sovet məmurlarının göstərişi ilə Katın qətliamını törətməsi və hazırda dünyanın bir çox ölkələrində və Rusiyada Katın qurbanlarına abidələr*
*ucaltması məqalədə konkret faktlarla izah edilir.*

**Açar sözlər:** Katın məzarlığı, Faşist Almaniyası, Sovet hökuməti, Polşa, Stalin, Beriya, Burdenko komissiyası, Polşa Milli İnstitutu, faciəninn aşkarlanması, abidələrin ucaldılması.

**Ключевые слова:** Катынское кладбище, фашистская Германия, Советское правительство, Польша, Сталин, Берия, комиссия Бурденко, Польский национальный институт, выявление трагедии, возвышение памятников.

**Keys words:** Khatyn grave, Nazi Germany, Soviet government, Poland, Stalin, Beria, Burdenko Commission, Polish National Institute, tragedy detection, opening of monuments.

1939-cu ilin 1 sentyabrında faşist Almaniyası Polşaya hücum etdi. 17 sentyabr 1939-cu ildə bağlanmış Molotov-Ribbentrop paktının şərtlərinə görə sovet ordusu Polşa ərazisinə daxil oldu və burada az müqavimətlə rastlaşdı.250 mindən 457 minədək polşalı əsgər və polis tərksilah edilib əsir götürüldü.Onlardan bəziləri tezliklə azad edildi və 125 min əsir Daxili İşlər üzrə Xalq Komissarlığının(NKVD) ixtiyarında olan həbs düşərgələrində saxlanılırdı.Onlardan 42.200 nəfəri əsasən Ukrayna və Belarusiya əsilli əsirlər idi.Polşa ordusunda xidmət edən və Sovet ittifaqına birləşdirilən Polşa ərazilərdə yaşayan əsgərlər həmin ilin oktyabr ayında azad edildilər.Almaniyanın nəzarətində olan Qərbi Polşada anadan

olmuş 43 min əsgər almanlara təhvil verildi.Əvəzində Sovetlər 13.575 polşalı əsiri almanlardan qəbul etdi.

1940-cı il sentiyabrın 19-da Lavrentiy Beriyanın göstərişi ilə hərbi əsirlərin işi üzrə idarə yaradıldı. NKVD qırmızı ordudan əsirləri təhvil götürür və onları qərbi SSRi-dəki hərbi əsir düşərgələrinə göndərirdi. Ən böyük düşərgələr Kozelsk,Ostaskov və Starobelsk düşərgələri idi. 1939-cu il 19 noyabr tarixində verilən məlumata görə NKVD- nin ixtiyarında 40 minə qədər hərbi polşalı zabit və əsgər var idi.Onlardan 8.000-8.500 zabit, 6.500 nəfəri polis zabiti və 25 mini əsgər və digər sahələrin nümayəndələri idilər. 1939- cu ilin noyabrın axırlarında hələ azadlıqda olan Polşa zabitlərini həbs etmək üçün yeni həbs dalğası başladı. Dekabrın 3-də İvan Serovdan Lavrentiy Beriyaya verilmiş məruzədə bildirdi ki, azadlıqda olan 1057 nəfər Polşa zabitinin hamısı həbs edilmişdir.Həbs düşərgələrində saxlanılan ümumi əsirlərdən 25 min rütbəsi alınmış zabit və əsgərlər yol tikintisi, dəmir yolu tikintisi və s digər ağır işlərdə işləməyə məcbur edilmişdirlər.

Bu düşərgələrdə 1939-cu ilin oktyabrından 1940-cı ilin fevralına qədər əsirlərlə NKVD zabiti Vasili Zuribinin başçılığı ilə uzun istintaqlar aparılmışdır. Həmin istintaqlar kimin sağ qalacağını və kimin öləcəyini müəyyən edirdi. NKVD-nin məruzələrinə görə əsirlər Sovet rejimini qəbul etmirdilərsə, onlar qəbul etmək üçün məcbur edilmirdi, sadəcə Sovet hökmətinin “ən sərt və barışmaz düşməni” elan edilirdilər.

1940-cı ilin martın 5-də Beriyadan Stalina göndərilmiş təklif məktubda deyilirdi: SSRİ Daxili İşlər üzrə Xalq Kommisarlığından (NKVD) yoldaş Stalinə: “Çoxlu miqdarda keçmiş Polşa ordusunun zabitləri, Polşa polisinin işçiləri, Polşa ziyalıları,Polşa millətçi və əks-inqilabçı partiyaların üzvləri,kəşfiyyat xidmətinin işçiləri və digərləri sovet sisteminə və hökümətinə nifrət edən düşmənlər hal-hazırda Ukrayna və Belarusiyanın qərb əyalətlərindəki NKVD-nin ixtiyarında olan hərbi əsir düşərgələrində və həbsxanalarında saxlanılır.Onlardan 14.736 nəfəri keçmiş zabitlər, 347 nəfər casus və sabotajcı,465 nəfər torpaq və fabrik sahibləri və hökümət rəsmiləri,5345 nəfəri əks – inqilabcı və müqavimət təşkilatları və digər təşkilatların üzvləri və digər təbəqələrin üzvləridir.Həmin düşərgələrdə saxlanılan hərbi və polis zabitləri düşərgələrdə belə əksinqilabçı və anti-sovet təbliğatları aparmağa cəhd edirlər.Onların hər biri azad olma anı gözləyirlər ki,Sovet hökuməti əlehinə fəal mübarizəyə başlasınlar. Yuxarıda göstərilən faktları nəzərə alaraq SSRİ NKVD-si Ukrayna və Belarusiyanın qərb əyalətlərində həbsdə saxlanılan Polşa elita nümayəndələrinə ən ali cəzanın-güllələnmənin tətbiq olunmasına məqbul hesab edir”.Verilmiş məlumatların nəticəsi olaraq,dörd Sovet Politbürosunun üzvləri-Stalin,Vyaçeslav Molotov, Kliment Voroşilov və Anastas Mikoyan qərbi Ukrayna və Belarusiyada əsir düşərgələrində saxlanılan 27.500 Polşa “millətçilərinin və əksinqilabçılarının” məhv edilməsi əmrini imzaladılar.Tarixçi Gerhard Veinberge görə bu qırğını törətməkdə əsas məqsəd gələcək Polşa ordusunu talant potensialından məhrum etmək idi.

Qırğın zamanı öldürülənlərin sayı 22 min göstərilir.1990-cı ildə üzə çıxarılmış sənədlərə görə 3 aprel 1940-cı ildən sonra öldürülənlərin dəqiq sayı 21.857 nəfərdir. Xatın də daxil olmaqla digər düşərgələrdə qırğın zamanı 14 polyak generalı məhv edilmişdir.

Öldürülənlərdən hamısı milliyətcə polyak deyildi.Çünki İkinci Polşa Respublikasının zabitlər korpusunun tərkibi etnik cəhətdən çox millətli idi və onun zabitlər korpusunda belarus,ukrayna və yəhudi millətindən olan zabitlər də var idi. Xatın faciəsi zamanı öldürülənlərin 8% Polşa yəhudisi idi.Ölümə məhkum edilən qeyri millətlərin 395 nəfəri öldürülmədi. Onlar Yukonov,sonra isə Qryazovetsk düşərgəsinə göndərildi və onlarin 99% sonralar öldürüldü.

Hər gecə təxminən bir ay ərzində NKVD-nin gənc agentləri Polşa zabitlərini,ziyalılarını və elitanın digər üzvlərini məhv etdilər. Qırğın axşamdan səhərə kimi davam edirdi.1940-cı il aprelin 4-də əsirlərin öldürülməsinin birinci günü 390 nəfər gətirildi.Bir gecə ərzində onların hamısı öldürüldü. Qətl prosesi əsasən alman istehsalı olan

7.65 mm Walter PPK tapancaları və 7.62 mm Naqan M1895 revalver tapancalari ilə aparıhrdı.NKVD-nin Kalinin həbsxanasında qatillərdə fəal iştirak edən gənc NKVD zabiti Vasili Mixayrfovic Bloxin "ən məhsuldar qatil" kimi tarixə düşüb.28 gün ərzində Kalinin həbsxanasında Ostaskov düşərgəsindən olan əsirlərin 3 min nəfərini o özü şəxsən güllələnmişdir.

Polşa əsirlərinin taleyi məsələsi 1941-ci ilin iyun ayında almanların Sovet ittifaqına hücumundan sonra başladı. 1941-ci ilin iyulun 16-ci Smolenski almanlar tərəfindən tutulur.Londonda sürgündəki Polşa hökuməti, Sovet hökuməti ilə Sikorski-Mayski müqaviləsi bağlandı.Müqaviləyə görə hər ikisi almanlara qarşı birgə vuruşmalı və Polşa ordusu sovet ərazisində formalaşdırılmalı idi.Tezliklə Polşa generalı Vladislav Anders ordu təşkil etməyə başladı və o, ruslardan itkin düşmüş Polşa əsirləri haqqında məlumat tələb etdi.Stalinlə görüşdə Stalin ona və o vaxt Polşa baş naziri olan Vladislav Sikorskiyə iki güman olunan cavab verdi.Birincisi o, iddia edirdi ki, həmin adamlar azad olunduqdan sonra Mancuriyaya qaçıblar.Bir çox sovet rəsmiləri həmin zabitlər barədə heç bir məlumatlarının olmadığını bəyan etdilər.İkincisi isə daha kəsərli şəkildə iddia olunan həmin əsirlərin almanların sürətli hücumu nəticəsində əsir alınmaları hesab olunurdu və onların hal-hazırda harada olmalarını ancaq almanlar bilə bilərdi.Bu cavab sonralar da Moskvanın verdiyi standart cavaba çevrildi-"bu məsələ üçün ancaq almanlar cavabdehdir".

1941-ci ildə polşalı dəmiryol fəhlələri yerli əhalidən Xatında kütləvi məzarlığın olduğu haqqında məlumat eşitdilər. Onlar bu barədə Polşa məxvi orqanına məlumat verdilər.Bu məlumat bir o qədər də vacib qarşılanmdı,çünki orada lap çox cəsədin olmasını heç kəs düşünmürdü. Həmin məlumatların bir çox hissəsi rus kəndlisi İvan Krivozertsev tərəfindən verilmişdir. O, həmin ili qəzetdə general Sikorski və onun minlərlə Polşa zabitllərini axtarması barədə məqalə oxuyur.Rusiyada ciddi kommunizm rejiminə baxmayaraq o, 1940-cı ildə Smolenskidə gördüklərini almanlara danışır və bildirir ki, Xatın meşəsində dəmiryolcuların tapdığı cəsədlər Polşa zabitləridir.Almanlar həmin ərazilərdə qazıntı işləri aparırlar və həqiqətən də minlərlə cəsəd aşkar edirlər.Onlar bu məlumatı yuxarı rəhbərliyə göndərir.Josef Göbbels bu tapıntıdan Sovetlər əlehinə istifadə etmək qərarına gəlir.Belə ki,"bolşevik dəhşətləri" adlı təbliğatı gücləndirməklə Polşa,Qərb İttifaqı və Sovet ittifaqı arasında gərginlik yaratmağa çalışır.Geniş hazırlıqlardan sonra bu məlumat 1942-ci il aprelin 13-də Berlin radiosu ilə dünyaya bildirildi.Radio məlumatında deyilirdi:"Alman ordusu Smolenski yaxınlığındakı Xatın meşəsində uzunluğu 28m, eni 16m olan xəndək tapıblar. Həmin xəndəkdə 3 min polşa zabitinin meyidi 12 qatda üst-üstə yığılmışdır. Radio məlumatında o da bildirilirdi ki,bu faciəni ruslar 1940-cı ildə törədiblər. Moskva dərhal vəziyyətlə bağlı öz münasibətini bildirdi."Smolenski yaxınlığında düşərgələrdə saxlanılan polşalı əsirlər yol tikintisinə cəlb edilmişdi.Alman ordusunun gözlənilməz hücumu ilə əlaqədar onlar evakuasiya oluna bilmədi və bunun nəticəsi olaraq əsirlər almanların əlinə kecdilər.Əgər onlar öldürülmüş vəziyyətdə tapılıblarsa bu o deməkdir ki,onlar almanlar tərəfindən öldürülmüşdü".

Belçika, Bolqarıstan, Danimarka, Finlandiya, Fransa, İtaliya, Xorvatiya, Hollandiya, Slovakiya, İsveç və Macarıstan kimi ölkələrdən almanlar 12 xarici ekspert və onların heyətləri daxil olmaqla Avropa Komissiyasını təşkil etdilər. Almanlar həmin hadisənin Sovet İttifaqı tərəfindən törədilməsini sübut etmək niyyətində idilər. Sovet hökuməti dərhal onlara qarşı edilmiş ittihamları inkar etməyə başladı və iddia etdilər ki, həmin əsirlər Smolenskidə tikinti işlərinə cəlb olunmuşlar və 1941-ci ildə almanlar həmin əraziləri tutarkən onlar tərəfindən əsir götürülüb və öldürülmüşlər. 1942-ci ilin aprel ayının 15-də sovet məlumat bürosu almanların 13 apreldə verdikləri məlumata cavab məlumat hazırladılar və məlumat həmin günü radio vastəsilə elan edildi.Məlumatda deyilirdi:"Smolenski yaxınlığında tikintidə işləyən Polşalı hərbi əsirlər 1941-ci ildə alman-faşist cəlladlarının əlinə keçir və məhv edilirlər". 1943-cü ilin aprelində Britaniya hökuməti BBC vastəsilə almanların dediklərinin yalan

olduğunu və rusların bu məsələdə günahları olmadığını bildirdi.Bu səbəbdən Londonda sürgündə olan Polşa hökuməti məsələ barədə Sovetlərlə danışıq aparmağı və məsələ barədə Beynəlxalq Qırmızı Xaç cəmiyyəti tərəfindən müstəqil araşdırılma aparılmasını təkid edir.Buna cavab olaraq Stalin Polşa hökumətini almanlarla əməkdaşlıqda ittiham edir və onlarla diplomatik əlaqələri kəsir və Moskvada Vanda Vasilevska tərəfindən liderlik edilən və Sovet ittifaqının tərəfdarı sayılan alternativ Polşa hökumətinin Qərb ittifaqı tərəfindən tanınması kampaniyasına başlayır. 1943-cü ilin 19 aprelində Kommunist Partiyası Mərkəzi Kommitəsinin rəsmi qəzeti olan "Pravda" qəzetində Polşa hökumətinin SSRİ-yə qarşı xəyanətkar zərbə vurması ilə bağlı məqalə də dərc etmişdir. İyul ayında Sikorski təyyarə qəzası nəticəsində ölür və bu hadisə Sovetlər üçün münasib olur.

Britaniya və Amerka hökumətləri üçün bu qırğın barədə cox şey bilmək maraqlı deyildi.Əgər onların müttəfiqi Stalin qətllər barədə əmr vermişdirsə onlar susmağa üstünlük verirdilər.

1943-cü ilin sentiyabr ayında qırmızı ordu həmin əraziləri tutdu.Bu barədə Göbbelsə məlumat verildikdən sonra o bu haqda öz gündəliyində yazırdı: "Təssüf ki biz Xatından geri çəkilməli olduq. Şübhəsiz ki bolşeviklər həmin zabitlərin bizim tərəfimizdən öldürüldüyünü sübut etməyə çalışıb bizi günahlandıracaqlar. Bu gələcəkdə bizim çətinliyimizi bir az da artıracaq".1943-cü ilin sentiyabr-oktyabr aylarında NKVD ört-basdır etmə əməliyyatlarına başladı.Bir cox sübutlar məhv edildi,şahidlər istintaqa cəlb olundu. Almanlar tərəfindən yaradılan Avropa komissiyası ölkələrdən ikisi və həmin ölkələrin komissiyadakı nümayəndələri, Bolqarıstandan Marko Marlcov və Çexiyadan Frantje Hajek ruslar tərəfindən tutulduqdan sonra aşkar olunan sübutları danmağa məcbur edildilər və bu məsələdə almanları günahlandırmağa başladılar.O vaxtdan bəri həmin hadisənin 1940-cı ilin apreldə törədilməsinə aid heç bir dəlil tapılmadı.Əksinə Sovet məxvi polisi tərəfindən saxta dəlillər yerləşdirildi ki, bu dəlil sübut edirdi ki, həmin hadisə 1941-ci ilin yayında almanlar tərəfindən törədilib.

1944-cü ilin yanvarında Sovet ittifaqı "alman-faşist işğalçılarının Xatın meşəsini işğal etdikləri vaxt qətlə yetirilmiş polşalı zabitlərin müəyyən edilməsi və araşdırılması" adlı xüsusi komissiya təşkil edib, həmin əraziyə göndərdilər.Komissiyaya SSRİ Tibb Elmləri Akademiyasının prezidenti Nikolay Burdenko başçılıq edirdi.Komissiya onun adı ilə bəzən "Burdenko komissiyası"da adlanırdı.Bu komissiyaya bir çox tanınmış xadimlər, o cümlədən tanınmış yazıçı Aleksey Tolstoy da daxil idi. Heç bir xarici vətəndaşın kommissiyaya qoşulmasına icazə verilmirdi. Kommisiya tərəfindən bütün meyitlər müayinə edildi və son qərar ondan ibarət oldu ki,həmin hadisə 1941-ci ilin avqustunda almanlar tərəfindən törədilmişdir.Çünki öldürülmüş zabitlərin üzərindəki gündəliklərin tarixi əvvəlcədən dəyişdirilib 1941- ci il tarixi qeyd olunmuşdur.Burdenko komissiyasının verdiyi nəticə raportu 1990-cı il aprelin 13- dək Sovet İttifaqı rəsmilərinin günahı qəbul edənə kimi qüvvədə qaldı.

1980-ci ildən sonra faciə ilə əlaqəli bütün sənədlərin arxivlərdən qaldırılması üçün həm Polşa,həm də Sovet hökümətinə qarşı edilmiş təzyiqlərin miqyası artır.Hər iki ölkə alimləri araşdırma aparır,1989-cu ildə Sovet alimləri aşkar edirlər ki, İosif Stalin həqiqətən də bu faciəni törətmək üçün əmr vermişdir. 1990-cı ildə Mixail Qorbacov həmin hadisənin NKVD tərəfindən törədilməsini və Xatınla yanaşı Mednoye və Patikatkidə də kütləvi məzarlığın olduğunu təsdiqliyir.

13 aprel 1990 -cı ildə kütləvi məzarlığın aşkar edilməsinin 57-ci il dönümündə SSRİ hökuməti öz "dərinkədərini"ifadə edir və həmin hadisənin sovet məxvi polisi tərəfindən törədildiyini rəsmən təsdiqləyir.Həmin gün Xatın qurbanlarının dünyada anım günü elan olunur.

Amerika Birləşmiş Ştatlarının milli arxivindən aşkara çıxardılmış məxvi sənədlər göstərirdi ki,iki amerikalı müharibə əsiri,polkovnik-leytenant Donald Styuard və polkovnik

John Van Vliet almanlar tərəfindən beynəlxalq xəbər konfransı üçün Xatına gətrildilər.Həmin ili onların kodlaşdırılmış xəbərlər toplusu Amerika rəhbərliyinə göndərildilər.Onların şahid kimi özləri və xəbərləri bir necə sübut xətti ilə hadisənin Sovetlər tərəfindən törədilməsini təsdiqliyirdi.

İkincisi meyidlərin üzərlərindən götrülmüş əşyalar,məktubların,gündəliklərin tarixi 1940-cı ilin yazını göstərir.Vaşinqton bu məlumatları gizli saxladı. Çox güman ki, Stalini almanalarla müharibədən yayındırmamaq üçün belə edilmişdir.

1991-1992-ci illərdə Polşa və amerkalıların daha cox sübut topladığına görə,Rusiya prezidenti Boris Yeltsin "Bağlama N°l"adlı möhürlü halda olan məxvi sənədlər toplusunu Polşa prezidenti Lex Valesaya göndərir.Həmin sənədlər arasında 5 mart 1940-cı ildə Lavrentiy Beriyanin 25.700 polşalının məhv edilmə təklifi də var idi.

1998-ci ilin iyununda Boris Yeltsin və Aleksander Kvasnevski Rusiya ərazisindəki NKVD-nin qətl düşərgələrində,Xatın və Mednoyedə xatirə kompleksinin tikintisinə razılaşdılar.Lakin həmin ilin sentiyabrında Rusiya 1919-1924- cü illərdə rus hərbi əsirlərinin Polşa əsir düşərgələrində ölümü ilə bağlı məsələ qaldırdı. Bildirilirdi ki, təxminən 16 mindən 20 minədək rus əsiri Polşa düşərgələrində yolxucu xəstəliklərdən ölmüşlər.Bir çox Rusiya rəsmiləri bunu Xatınlə müqayisə edilə biləcək bir faciə hesab edirdilər.Buna bənzər məsələ 1994-cü ildə də qaldırılmışdır.

2005-cı ilin martında Rusiya Federasiyasının Baş prokuroluğu bir neçə il uzun istintaqdan sonra yekun qərara gəlir.Rusiya baş hərbi prokuroru Aleksadr Savenko bildirdi ki,istintaq həmin dövrdə üç əsir düşərgəsində olan 14,542 əsirdən ölümə məhkum edilmiş 1.803 əsirin öldürülməsini təsdiq edir. Əsir düşərgələrində olan 7,000 əsir barədə isə heç bir məlumat verilmirdi.Savenko elan etdi ki,bu faciə genosid sayıla bilməz və bu hadisədə günahkar hesab edilən Sovet rəsmiləri həyatda olmadığına görə,bu barədə hüquqi şərtlərlə danışmaq tamamilə əsassızdır.

22 mart 2005-ci ilə Polşa rejmi Rusiya arxivlərinin yenidən araşdırılması üçün qərar qəbul etdi. Rejm həmçinin Rusiyadan Xatın facəsinin genosid kimi tanınmasını tələb edirdi.Verilmiş qərada o da vuğulanırdı ki, Rusiya rəsmiləri arxiv sənədləri üzərində düzgün araşdırmaların aparılmasından və cinayətin genosid kimi tanınmasından boyun qaçırır və bununla isə cinayətin və cinayətkarların həqiqiliyini üzə çıxarmağa əngəl törədir.

2008-ci ildə "Rossiyskaya Gazeta","Komsomolskaya Pravda" və "Nezavismaya Gazeta" qəzetləri də daxil olmaqla bir neçə rus qəzetləri həmin cinayətin faşistlər tərəfindən törədildiyi barədə məqalələr dərc etdilər.Buna cavab olaraq Polşa Milli İnistitutu özü araşdırma aparmaq qərarına gəldi.Həmin il Polşa Xarici İşlər Nazirliyi Rusiya hökumətindən NKVD tərəfindən Polşa zabitlərinin öldürülməsi zamanı çəkimiş görüntüləri tələb etdi. 2008-ci ildə Rusiya məhkəməsi Xatın faciəsi ilə bağlı bütün məxvi sənədlərin aşkara çıxarılması barədə qərar verir. Həmin il 81 səhifədən ibarət olan sənədlər toplusu Polşa hökumətinə göndərilir.Polşa qəzetlərinə müsahibə zamanı Vladimir Putin Xatın faciəsini "siyasi cinayət''adlandırır.

2010-cu ilin aprelində Rusiya baş naziri Vladimir Putin Polşa baş naziri Donald Tuskini faciənin 70-ci ildönümü ilə əlaqədar Rusiyaya dəvət edir.Səfər 7 aprel 2010-cu ildə baş tutdu.Putin və Donald Tuski faciənin 70-ci ildönümünü birlikdə anırlar. Səfərdən əvvəl Rusiya dövlət televiziyasında ilk dəfə Xatın faciəsi barədə çəkilmiş film nümayiş etdirildi.10 aprel 2010-cu ildə Polşa prezidenti Lev Kaçinskinin təyyarəsi Smolensk yaxınlığında qəzaya uğrayır.Təyyarədə olan yüksək rütbəli zabitlər və siyasətçilər də daxil olmaqla 96 nəfərin hamısı faciəli şəkildə həlak olur.Təyyarədə olanlar Xatın faciəsinin 70 illiyi ilə bağlı anım mərasiminə gəlirdirlər.Təyyarədə olmayan Donald Tuski hadisənin "müharibədən sonrakı ən faciəli hadisə olduğunu" qeyd edir.Hadisə ilə bağlı dünya və Rusiya mətbuatında sui-qəsd olma fikirləri öz əksini tapır.

2010-cu ilin noyabr ayında Rusiya Dövlət Duması qərar verir ki,bütün sənəd araşdırmaları göstərir ki,"Xatın faciəsi birbaşa Stalin və digər Sovet rəsmilərinin əmri əsasinda törədilmişdir".Bundan başqa qərarda o da göstərilirdi ki,istintaq bütün qurbanların siyahası tam təsdiq olunana kimi davam etdirilməlidir. Dumada olan Kommunist partiyasının üzvləri Sovet hökumətinin günahlarını dandılar və qərarın əlehinə səs verdilər. Kommunist deputatlar Sovetlər dövründə törədilmiş bu cinayəti danmaqda davam edirlər və iddia edirlər ki,göstərilən sənədlərin hamısı saxtalaşdırılıb və Polşa əsirləri almanlar tərəfindən 1941-ci ilin avqustunda öldürülüblər.Onlar Rusiya hökumətindən istintaq və araşdırmaların yenidən başlanmasını və əldə olunmuş dəlillərə yenidən baxılmasına tələb etməkdə davam edirlər. Hal-hazırda bu faciə ücün dünyanın bir cox yerlərində abidələr ucaldılıb.Soyuq müharibə dövründə Britaniya hökuməti abidənin Britaniyada qoyulmasına icazə vermədi.Britaniya hökuməti Sovet ittifaq ilə münasibətlərin pisləşməsini istəmirdi.Ona görə də abidənin tikintisi bir necə il gecikdi. 1976-cı il sentiyabrm 18-də narazılıqlara baxmayaraq Gunnersbury qəbristanlığında abidənin açılışı oldu.Hökumət rəsmilərindən açılışda heç bir nümayəndə iştirak etmədi.Britaniyada ikinci abidə üç il sonra 1979-cu ildə Staffordshiredə ucaldıldı.

Rusiyada 2000-ci ildə abidə Xatın qəbristanlığında açıldı. Bundan başqa Kanadanın şəhəri olan Torontoda və Amerika Birləşmiş Ştatlarının Merilend, Detroit, Nyu Cersi və Niles şəhərlərində faciə ilə bağlı müxtəlif tarixlərdə abidələr ucaldılmışdır. Xarkovda öldürülənlərin şərəfinə xatirə kompleksi keçmiş NKVD zabitlərinin istirahət evinin künc tərəfində ucaldılmışdır.

### *Ədəbiyyat*

1.Nataliya Lebedova, Anna Cienciala. "A crime without punishment". Yale University press.2007
2.Stanislav Svianvic."In the shadow of Katyn". Published in 2002 by Borealis publishing.
3.J.K.Zawodny. "Death in the forest".1971 by University of Notre Dame Press.
4.Jozef Czapski. "The inhuman land". 1950. New York
5.Vladimir Abirinov. "The Murders of Katyn".1993 New York
6.Rey Cowdery and Josephine Cowdery. "Katyn, an examination of the evidence".1995
7.Salamon Slowes."The Road to Katyn".1992.Oxford
8.VladimirAbirinov."Kayinski labirint".1991, Москва
9.Наталья Лебедева."Катин Ареступление протиф человечества ".Москва 1994
10.R.G.Pikhoia, Natalya Lebedova, A.Gieysztor, W.Materski. "Katyn. Plenniki voiny".Moskva.1997
11.Nikolai Tolstoy. Jonatan Cape. "Stalin is Secret war". London. 1981
12.Yuri Mukin. "Katynski Detektiv". Moskva.1995
13.Докладная записка наркома внутренних дел СССР Л.П.Берии И.В.Сталину. Архивы России.2010,
14.I.S.Yazhborovskaya. A.Y.Yablukov. V.S.Parsadanov. Катинский синдром в советско-польских и российско-польских отношениях.2001 Москва
15.Mukhin Yuri. Антироссийская подлость.Москва.2003

## КАТЫНСКЯ ТРАГЕДИЯ

***Вейсов Ариф Гаджи оглы, Вейсова Малек Ариф кызы.***

***Резюме***

Нападения фашистской Германии на Польшу 1 Сентября 1939 года и вторжение Советской армии на территорию Польши на основании советско-немецкого договора от 17.09.1939 года, сообщение железнодорожными рабочими Польши о массовом кладбище в Хатыни в 1941 году немцам, создание Европейской Комиссии немцами с целью использования этой находки против Советов нашло свое отражение в статье.

После освобождения этих территорий с целью доказательства совершения трагедии в Хатыни немцами, создание комиссии Советским правительством и сохранение в силе этого требования до признания официальных представителей Советов своей вины, даны в статье конкретными фактами.

Доказательство совершения Катынской трагедии непосредственно по приказу Сталина и других официальных представителей Советов на основании документальных исследований ученых обеих стран и возвышение в настоящее время памятников жертвам Хатыни во многих странах мира, в том числе и в России, изложено в статье на основании конкретных фактов.

## KATYN MASSACRE

***Veyisov Arif Haji oglu, Veyisova Malak Arif gizi***

***Summary***

On 1 September 1939, the invasion of Poland by Nazi Germany, according to the Soviet-German agreement of 17 September 1939, the Soviet invasion of Poland, and in 1941, informing the Germans by Polish railway workers about there is a mass grave in Katyn, creating a European Commision by Germans to use this finding against the Soviets are explained in the article with concrete facts.

After the liberation of those territories, creating a committee by the Soviet government, claims of Sovets that the Katyn massacre was committed by the Germans and the claim remains in force until the Soviet officials confess are shown in this article with concrete facts.

Committing Katyn massacre by Stalin and other Soviet officials' orders according to document research by scholars of both countries and it is currently erecting monuments to victims of Katyn in many countries of the world and in Russia are explained in the article with concrete facts.

***Rəyçi: t.ü.f.t. Allahverdiyeva Gültəkin***

***BDU-nun Qazax filialının ictimai fənlər kafedrasının 10 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***

***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:796.**

## OLİMPİYA TƏHSİLİ VƏ ONUN FUNKSİYALARI

***Hüseynova Elnarə Teyyub qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** *Məqsədi uşaq və gənclərin olimpizmin ideal və dəyərlərinə qoşulması olan olimpiya təhsili təhsil sistemində, yetişən nəslin təlim və tərbiyəsində getdikcə daha mühüm yer tutmağa başlayır. Bir çox ölkələrdə məktəblilər, tələbələr və digər qruplardan olan uşaq və gənclər üçün olimpiya təhsili proqramları reallaşdırılır.*

*Müasir olimpiya hərəkatının banisi fransız baron Pyer de Kuberten (1863-1937) hesab olunur. P.Kuberten görkəmli humanist, insanpərvər bir şəxsiyyət olub. O, özünün idman mədəniyyəti, tarix, etika haqqındakı ideyalarını 30-dan çox kitab, 50 kitabça və 120 məqaləsində bizə çatdırmışdır. Onun əsərləri müasir olimpiya əsərlərinin elmi cəhətdən dərk edilməsi ilə bağlı bütün tədqiqatlar üçün əsas dayaq nöqtəsi, istinad mənbəyidir.*

*Olimpizmin məqsədi idmanın bəşəriyyətin harmonik inkişafına xidmət etməsi və bununla da insan ləyaqətinin qorunmasına xidmət edən sülhsevər cəmiyyətin yaradılmasına yardımıdır.*